# Həftəlik
# *Bülleten*



**117**
**14 Noyabr 2025**

Xəbərlər
Tədbirlər
Görüşlər
Tender və lahiyələr
Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**İlham Əliyev: "Özbəkistan Qarabağın yenidən qurulmasına yardım təşəbbüsünü irəli sürən ilk ölkədir"**

"Özbəkistan Azərbaycanın ərazi bütövlüyünü dəyişməz olaraq dəstəkləyib. Fürsətdən istifadə edərək, qardaş Özbəkistana Qarabağın bərpasına verdiyi töhfəyə, xüsusən də azad edilmiş Füzulidə böyük özbək alimi Mirzə Uluqbəyin adını daşıyan və hazırda təxminən 600 şagirdin təhsil aldığı məktəbin tikintisinə görə minnətdarlığımı bildirirəm".

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibəsində deyib.

Prezident qeyd edib ki, Özbəkistan Qarabağ bölgəsinin yenidən qurulmasına yardım göstərmək təşəbbüsünü irəli sürən ilk ölkə, Prezident Mirziyoyev isə dünyada ilk lider olub: "Biz bunu həmişə xatırlayacaq, ölkələrimiz və xalqlarımız arasında həmrəylik, dostluq və qardaşlıq jesti kimi qəbul edəcəyik".



**Çin şirkətləri Bakıda yolların tikintisində iştirak etmək istəyirlər.**

Noyabrın 7-də Azərbaycan maliyyə nazirinin birinci müavini Anar Kərimov ölkəmizdə səfərdə olan Çin İxrac və Kredit Sığorta Korporasiyasının (Sinosure) və Çin Yol və Körpü Korporasiyasının (CRBC) nümayəndə heyətləri ilə görüşüb. Görüş Azərbaycan Prezidenti İlham Əliyevin avqust ayında Çinə səfəri zamanı keçirilmiş görüşlərdə əldə olunan razılaşmaların davamı olaraq, iqtisadi və maliyyə sahəsində əməkdaşlığın genişləndirilməsi məsələlərinin müzakirəsinə həsr olunub. Qeyd edilib ki, həmin yüksək səviyyəli səfər iki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin, həmçinin infrastruktur və investisiya sahəsində tərəfdaşlığın daha da inkişafına mühüm təkan verib. A. Kərimov ölkəmizdə nəqliyyat infrastrukturunun inkişafı, bu sahədə həyata keçirilən layihələr, o cümlədən "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan infrastruktur layihələri barədə məlumat verib. Çin nümayəndə heyəti qeyd olunan layihələrdə iştirak etmək, eləcə də layihələrin texniki, mühəndislik, tikinti və maliyyə təminatı sahələrində əməkdaşlıq imkanlarını araşdırmaqda maraqlı olduqlarını ifadə ediblər.



**Azərbaycanda ucuz torpaqlar hərraca çıxarıldı.**

Dekabrın 10-da Azərbaycanın müxtəlif regionlarında 12 torpaq hərracı keçiriləcək. Bu barədə İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti (ƏMDX) məlumat yayıb.

Hərraclar Dövlət Xidmətinin Sumqayıt, Abşeron, Lənkəran, Zərdab, Qazax, Ağstafa, Şabran, İmişli və Balakən ərazi şöbələrində təşkil olunacaq. Satışa bələdiyyə orqanlarına məxsus fərdi ev tikintisi, əkin və təsərrüfat məqsədli istifadə üzrə 12 torpaq sahəsi çıxarılacaq.

Hərraca çıxarılacaq torpaq sahələri aşağıdakılardır.

Torpaq müsabiqə və hərracları 10 dekabr 2025-ci il saat 15:00-da keçiriləcəkdir.

(Ərizələr 12 noyabr - 8 dekabr 2025-ci il tarixlərində qəbul edilir)



**Azərbaycanda metal filizlərinin hasilatı iki dəfədən çox artıb.**

Bu ilin yanvar-sentyabr aylarında Azərbaycanda 480,7 milyon manatlıq metal filizləri hasil edilib.

Barədə Dövlət Statistika Komitəsindən məlumat əldə edib.

Məlumata görə, metal filizlərin hasilatı ötən ilin eyni dövrü ilə müqayisədə 260,3 milyon manat, yaxud da 2,2 dəfə artıb.

Belə ki, 2024-cü ilin ilk 9 ayında Azərbaycanda 220,4 milyon manatlıq metal filizləri hasil olunub.

Qeyd edək ki, bu ilin ilk 9 ayında Azərbaycanda mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 28,8 milyard manat olmaqla, əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,7 faiz azalmışdır.



**Laçının Qorçu qəsəbəsində gələn il tikinti işlərinə başlanması nəzərdə tutulub.**

Laçın rayonunun Qorçu qəsəbəsində ilkin olaraq söküntü işlərinə start verilib. Bunu Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru Rafiq Salmanov deyib. O bildirib ki, ümumilikdə 319 yararsız tikilinin söküntüsü həyata keçirilir: “Söküntü işlərinin iki ay ərzində tamamlanması planlaşdırılır. “EL SEYM” şirkəti tərəfindən aparılan söküntünün ərazisi 300 hektardır. Söküntü prosesi başa çatdıqdan sonra 2026-cı ildə Qorçu qəsəbəsində birinci mərhələyə aid tikinti işlərinin başlanması nəzərdə tutulub. Bu mərhələdə 250 fərdi yaşayış evinin inşası üçün layihə-smeta sənədləri artıq hazırlanıb. Bundan əlavə, Qorçu qəsəbəsində 264 yerlik məktəb, 140 yerlik bağça, tibb məntəqəsi, klub-icma mərkəzi, idman-sağlamlıq mərkəzi və inzibati binanın tikinti işləri başlayacaq, yollar salınacaq". Məlumata görə, “Böyük Qayıdış”a dair II Dövlət Proqramı çərçivəsində Qorçu qəsəbəsinin inşasının növbəti mərhələsi üzrə tikinti işlərinin 2027–2030-cu illərdə həyata keçirilməsi planlaşdırılır. Bu mərhələdə isə 250-300 fərdi yaşayış evinin və üç-dörd mərtəbəli çoxmənzilli yaşayış binasının tikintisi planlaşdırılır. Ümumilikdə gələcəkdə Qorçu qəsəbəsində min ailənin daimi məskunlaşdırılması nəzərdə tutulub.



**Hadrut qəsəbəsinin abadlaşdırılması üzrə 2,6 milyon manatlıq işlərə başlanılır.**

Xocəvənd rayonunun Hadrut qəsəbəsi üzrə yaşıllıq və abadlaşdırma işləri aparılacaq. Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti artıq bununla bağlı müvafiq işlərə start verib.

Belə ki, qurum hazırda qəsəbədə abadlıq işlərini görəcək şirkəti müəyyənləşdirməkdədir. Eyni zamanda dövlət xidməti Hadrut qəsəbəsində görüləcək işlərin 2,658 milyon manata başa gələcəyini proqnozlaşdırıb. Xocavənd rayonunun Hadrut qəsəbəsi 2020-ci il oktyabrın 9-da Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib. Digər azad edilmiş ərazilərdə olduğu kimi Hadrutda da tikinti işləri sürətlə davam etdirilir, genişmiqyaslı abadlıq-quruculuq layihələri icra olunur. Qəsəbədə ümumilikdə 541 ev var ki, onlardan da 462-si yararsız, 79-u isə qismən yararlıdır. Bu evlərdən 10-u artıq istismara hazırdır. Qismən yararlı evlərin hamısı ilin sonunadək bərpa ediləcəyi bildirilir. Hazırda 10 ailə, ümumilikdə 41 nəfər öz Hadrutda yaşayır.



**Lənkəran Dairəvi qalasının yaxın zamanda bərpasına başlanılacaq.**

"Lənkəran Dairəvi qalasının layihəsinin hazırlanması çox müddət tələb etdi". Bunu Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva deyib.

Onun sözlərinə görə, hələ 2019-cu ildə qalanın layihəsi hazırlansa da bərpa işləri həmin vaxt aparılmadığından və o dövrdən bəri qalada artıq yeni dağıntılar baş verdiyindən layihəyə əlavələr aparılıb: "Yaxın zamanda bərpa işlərinə başlanılacaq".



**Sərginin adı: BEAUTIFUL HOUSES 2025**
**Tarixlər: 20-23 noyabr 2025-ci il,**
**Məkan: Crocus-Expo IEC, Moskva (Rusiya)**
Rusiya Beynəlxalq Memarlıq və Tikinti Sərgisi.

**Sərginin adı: TÜYAK 2025**
**Tarixlər: 21 - 23 noyabr 2025-ci il**
**Məkan: ICEC (İstanbul Lütfi Kırdar Konqres və Sərgi Mərkəzi), İstanbul (Türkiyə)**
Yanğın təhlükəsizliyi üzrə beynəlxalq simpozium və sərgi, yanğınların, zəlzələlərin, təxribatların, iş yerində qəzaların və ətraf mühit risklərinin aşkarlanması, xəbərdar edilməsi və söndürülməsi üçün yeni cihaz və sistemlərin təqdimatı.

**Sərginin adı: BIG 5 GLOBAL 2025**
**Tarixlər: 24 - 27 noyabr 2025-ci il**
**Məkan: Dubay Dünya Ticarət Mərkəzi (Dubay Sərgi Mərkəzi), Dubay (BƏƏ - Birləşmiş Ərəb Əmirlikləri)**
Beynəlxalq Tikinti,Su Texnologiyası və Ətraf Mühit,Kondisioner və Soyutma,Təmizlik və Texniki Xidmət,Şüşə və Metal Sərgisi.

**Sərginin adı: BEST5 ALGERIA 2025**
**Tarixlər: 24-27 noyabr 2025-ci il ,**
**Məkan: Palais des Expositions d'Alger – Safex, Əlcəzair (Əlcəzair)**
Beynəlxalq Tikinti, Tikinti Materialları və Texnologiyaları Sərgisi. Tədbir bina və konstruksiya, HVAC, pəncərə-qapı, döşəmə-alüminium-şüşə və dekorasiya sektorlarına həsr olunub.

**ƏRAZİ TİKİNTİ-PLANLAŞDIRMA MƏRKƏZİ TENDER ELAN EDİR.**

Ərazi Tikinti-planlaşdırma Mərkəzi açıq tender elan edir.
Elanda Xankəndi şəhərində Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsinin inzibati binasının tikintisi işlərinin satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Asim Yaqubov, Şöbə müdiri
Ünvan: asim.yaqubov@arxkom.gov.az
Əlaqə telefonu: +994 12 492 31 89



**MASALLI RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ MASALLI ŞƏHƏR ÜZRƏ NÜMAYƏNDƏLİYİ TENDER ELAN EDİB.**

Masallı Rayon İcra Hakimiyyəti Başçısının Masallı Şəhər Üzrə Nümayəndəliyi açıq tender elan edib.
Elanda Masallı rayonunda binalarının və yolların əsaslı təmiri, həmçinin abadlıq işləri ilə bağlı layihə smeta sənədlərinin hazırlanması xidmətlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Qarabəy Nəsirov, Baş məsləhətçi-baş mühasib
Email: qarabey1958@mail.ru
Əlaqə telefonu: +994 50 370 89 71



**AZƏRBAYCAN RESPUBLİKASI QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ MƏNZİL İSTİSMAR DEPARTAMENTİ TENDER ELAN ETDİ.**

Azərbaycan Respublikası Qaçqınların Və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi Mənzil İstismar Departamenti açıq tender elan edib.
Elan Saatlı rayonunda salınmış məcburi köçkün qəsəbələrində fərdi yaşayış evlərinin təmiri işlərinin satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Fariz Abbasov, Sektor müdiri
Email: fariz.abbasov@idp.gov.az
Əlaqə telefonu: +994 12 430 15 30



**AĞDAM, FÜZULİ VƏ XOCAVƏND RAYONLARINDA BƏRPA,TİKİNTİ VƏ İDARƏETMƏ XİDMƏTİ PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN ETDİ.**

Ağdam, Füzuli Və Xocavənd Rayonlarında Bərpa,tikinti Və İdarəetmə Xidməti Publik Hüquqi Şəxsi açıq tender elan edib.
Elanda "Ağdam rayonu, Sarıcalı və Kəngərli kəndlərində yerləşən qəbiristanlıq ərazisinin hasarlanması işləri"nin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Emil Quliyev, Baş məsləhətçi
Email: emil.guliyev@afxbti.gov.az
Əlaqə telefonu: +994 50 640 00 04



**"ŞUŞA ŞƏHƏRİ DÖVLƏT QORUĞU İDARƏSİ" PUBLİK HÜQUQİ ŞƏXSİN MƏNZİL-KOMMUNAL VƏ TƏMİR XİDMƏTİ TENDER ELAN ETDİ.**

"Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" Publik Hüquqi Şəxsin Mənzil-kommunal Və Təmir Xidməti açıq tender elan edib.
Elan daşına bilən yüngül metal konstruksiyalı qoruyucu örtüyün quraşdırılması işlərinin satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Aydan Məhərrəmzadə, Mühasib - satınalma mütəxəssisi
Email: mktx@shusha.gov.az
Əlaqə telefonu: +994 99 200 91 25



**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİNİN TƏSƏRRÜFAT HESABLI ƏSASLI TİKİNTİ VƏ TƏCHİZAT İDARƏSİ TENDER ELAN ETDİ.**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfat Hesablı Əsaslı Tikinti Və Təchizat İdarəsi açıq tender elan edib.
Elan Respublika üzrə bir sıra məktəbəqədər və ümumtəhsil müəssisələrində təmir, kommunal-kommunikasiya və abadlıq işlərinin satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Quliyev Zülfiqar, Baş mütəxəssis
Email:zulfugar.guliyev@etti.edu.gov.az
Əlaqə telefonu: +994 12 465 73 48





**www.atmia.az**